2024-cü ilin akkordları

Bakı Ekspo Mərkəzində regionda müdafiə sənayesinə həsr olunmuş ən nəhəng tədbir 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və 14-sü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları "Securex Caspian" sərgilərinin rəsmi açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Sərgisi ilə tanış olub. Prezident İlham Əliyevin "ADEX" sərgisinə göstərdiyi diqqət və ənənəvi olaraq şəxsi iştirakı tədbirin beynəlxalq müstəvidə və ölkə daxilində strateji əhəmiyyətini nümayiş etdirir və nüfuzunun artmasına böyük təkan verir.

Ölkəmiz regionda müdafiə sənayesinə həsr olunmuş ən nəhəng tədbir olan Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" sərgisinə ev sahibliyi edib

Beynəlxalq Müdafiə Sərgisi təkcə silah və texnologiya sahəsində ən son nailiyyətlərin nümayişi deyil, həm də ölkələr arasında uzunmüddətli əməkdaşlığın əsaslarının qoyulduğu platformadır. Artan qlobal təhdidlər və qeyri-sabitlik kontekstində belə tədbirlər qlobal təhlükəsizliyin və dövlətlər arasında davamlı dialoqun təmin edilməsində əsas rol oynayır. "ADEX" və buna bənzər digər sərgilərdə ölkələr təkcə müdafiə sənayesi sahəsində öz qabaqcıl inkişaflarını təqdim etmir, həm də fəal şəkildə təcrübə mübadiləsi aparır, birgə strategiya və yanaşmaları müzakirə edirlər. Bu da öz növbəsində, tərəfdaşlığı gücləndirmək və beynəlxalq sabitlik üçün unikal imkanlar yaradır. Belə sərgilərin əhəmiyyətini anlamaq çətin deyil: iştirakçılar texnologiyanın inkişafına töhfə verir, gələcək üçün ümumi fəaliyyət planları formalaşdırır ki, bu da onları qlobal təhlükəsizlik sisteminin ayrılmaz elementinə çevirir.

2024-cü il sentyabr ayının 24-26 tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi regionda müdafiə və təhlükəsizlik məsələlərinin müzakirəsi üçün aparıcı platformalardan biri kimi mövqeyini möhkəmləndirdi. Son illər sərgi təkcə Cənubi Qafqaz üçün deyil, həm də Mərkəzi Asiya, Yaxın Şərq və Avropa dövlətləri üçün qabaqcıl texnologiyalar, təcrübə və strategiyaların mübadiləsi mərkəzinə çevrilib. "ADEX-2024" qlobal səviyyədə ölkələr arasında qarşılıqlı fəaliyyət üçün unikal imkanlar təklif edərək xüsusilə müasir geosiyasi dəyişikliklər fonunda əhəmiyyətli oldu.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin dəstəyi ilə təşkil olunan sərgi dünyanın müxtəlif ölkələrindən aparıcı müdafiə şirkətlərini, hökumət nümayəndə heyətlərini və ekspertləri yenidən bir araya gətirdi. Bu il kibertəhlükəsizlik, pilotsuz sistemlər sahəsində innovasiyalara, eləcə də mövcud müdafiə texnologiyalarının modernləşdirilməsinə xüsusi diqqət yetirildi. Sərgi iştirakçıları həm dünyanın aparıcı istehsalçıları, həm də Azərbaycanın müdafiə sənayesi müəssisələri tərəfindən istehsalın lokallaşdırılmasında və öz həllərinin işlənib hazırlanmasında heyranedici uğurlar nümayiş etdirən ən son silah və hərbi texnika nümunələrini görə bildilər.

"ADEX" dost və müttəfiq ölkələrin tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında unikal rol oynayır. Bu sərgi dünya silah bazarında ixraca təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq, beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələr imzalamaq üçün geniş imkanlar yaradır. Tədbirdə dünyaca məşhur yüzlərlə şirkət öz məhsullarını nümayiş etdirir. "ADEX" müxtəlif ölkələrin öz müdafiə və müdafiə sənayesi sahələrini gücləndirmələri, istehsal imkanlarını artırmaları, müasir və innovativ vasitələri tətbiq etmələri və təcrübə mübadiləsi aparmaları baxımından önəmli tədbirdir". Bu fikirlər "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisinin iştirakçılarına müraciətində yer alır. Qeyd edilir ki, Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi məsələlərinə dövlət tərəfindən xüsusi diqqət yetirilir və bu sahələrin daha da inkişafı prioritet istiqamətlərdəndir. Son illərdə ölkəmizin müdafiə sənayesi sürətlə inkişaf edir. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərimizin işğaldan azad edilməsində müstəsna rol oynamış Azərbaycan hərbi sənaye kompleksinin gücü və qüdrəti, ölkəmizdə istehsal olunan müasir silahlar da "ADEX" sərgisi çərçivəsində nümayiş olunur. Təsadüfi deyil ki, istər 44 günlük Vətən müharibəsi, istərsə də lokal xarakterli antiterror əməliyyatları zamanı Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində bu gün diqqətlə öyrənilir.

Üç gün davam edən sərgidə 40 ölkədən 218-dək şirkət iştirak edib.İştirakçı ölkələr Azərbaycanla yanaşı, ABŞ, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, İspaniya, İsrail, İtaliya, Litva, Macarıstan, Pakistan, Qətər, Rusiya Federasiyası, Serbiya, Sinqapur, Slovakiya, Türkiyə, Ukrayna və digərləridir. İştirakçı ölkələr arasında Macarıstan, Qətər, Sinqapur və Slovakiya 2022-ci il ilə müqayisədə yeni iştirakçılardır.14 ölkə sərgilərdə milli pavilyonla təmsil olunub. Belə ki, Azərbaycan, Belarus, Çexiya, Çin, İtaliya, İsrail, Macarıstan, Pakistan, Qətər, Rusiya, Serbiya, Slovakiya, Türkiyə və Ukrayna sərgilərdə milli pavilyonla iştirak edib.

Ənənəvi olaraq "ADEX" müxtəlif ölkələrdən nüfuzlu qonaqları və nümayəndə heyətlərini cəlb edir. Sərgiyə dünyanın 27 ölkəsindən 53 yüksək səviyyəli rəsmi nümayəndə heyətinin ziyarəti nəzərdə tutulmuşdur. Azərbaycan da daxil olmaqla, Belarus, Bəhreyn, Burkina-Faso, Əlcəzair, Gürcüstan, İordaniya, İsrail, İtaliya, Küveyt, Malayziya, Mərakeş, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Rumıniya, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Serbiya, Slovakiya, Somali, Türkiyə, Türkmənistan, Ukrayna, Xorvatiya və Vyetnamı təmsil edən nümayəndə heyətlərinin tərkibində 300-dən çox rəsmi sərgiyə qatılıb.

Xatırladaq ki, ilk "ADEX" sərgisi 2014-cü ildə keçirilib. İki ildən bir keçirilən sərgi bu il 5 illik yubileyini qeyd etsə də artıq 10 ildir fəaliyyət göstərir və ildən-ilə iştirakçı siyahısını və əhatə etdiyi sektorları genişləndirir. Sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkətləri və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib. Bu illər ərzində sərgini 30 mindən çox qonaq ziyarət edib.

Sərginin təşkilatçısı "Caspian Event Organisers" və onun beynəlxalq tərəfdaşı "Caspian Event Management" şirkətidir. "ADEX" sərgisinin qızıl sponsorları "Baykar" və "Israel Aerospace Industries", bürünc sponsoru isə "Barzan Holdings" şirkətidir. "ADEX" sərgisi ilə paralel olaraq təşkil edilən "Securex Caspian" sərgisi hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirib. Sərgilər zamanı Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və tabeli qurumları ilə bir sıra xarici dövlət təşkilatları və özəl şirkətlər arasında sənədlər, MSN-in tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinq"i Qapalı Səhmdar Cəmiyyəti ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair Anlaşma Memorandumu imzalanıb, bir çox mövzularında panel müzakirələr aparılıb. Qeyd edək ki, 2024-cü ildə "ADEX" və "Securex Caspian" sərgilərinin miqyası daha da genişlənərək əvvəlki illərlə nisbətdə ekspozisiyada artım nümayiş etdirib. Belə ki, sərgilər bu il artıq "Bakı Ekspo Mərkəzi"nin yeni istifadəyə verilmiş 4-cü zalı da daxil olmaqla bütün qapalı, eləcə də açıq sahəsini əhatə edib.

2024-cü ildə "ADEX" sərgisinin əhatə etdiyi bölmələr sırasına yeni sektor - kibertəhlükəsizlik əlavə edilmişdir. "ADEX" sərgisi ilə paralel olaraq təşkil edilən "Securex Caspian" sərgisi hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirib. "Securex Caspian" sərgisinə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və ilk dəfə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidməti tərəfindən dəstək göstərilir. 2024-cü ildə ilk dəfə olaraq, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidməti "Securex Caspian" sərgisində stendlə iştirak edib. Sərgidə ekspert-kriminalistika vasitə və sistemləri, əməliyyat-axtarış avadanlıqları, girişə nəzarət və idarəetmə sistemləri, hüquq-mühafizə orqanları üçün xüsusi avtomobillər, informasiya təhlükəsizliyi, mühafizə xidmətləri, qəza-xilasetmə vasitə və avadanlıqları, silah və sursatlar, təhlükəsizlik sahəsində təhsil, video-müşahidə sistemləri, xüsusi geyim və avadanlıqlar, yanğın təhlükəsizliyi və s. bölmələr təqdim olunub.

Bu sərgi dəniz, hava və quru qoşunları üçün nəzərdə tutulmuş məhsulların, eləcə də milli təhlükəsizlik (Homeland Security) məhsullarının təqdim edilməsi üçün ideal platformadır. Sərgi əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi üçün əlverişli şəraitin yaradılmasına töhfə verəcək və dövlətin, cəmiyyətin daxili təhlükəsizliyinin təmin edilməsi üçün tətbiq olunan problemlərin həllinə kömək edir.

Mustafa KAMAL,
"Respublika".